# İçməli suya qənaət edək

Bəşəriyyət yaranandan bu günədək su insan həyatının ayrılmaz hissəsi olmuşdur. Təsadüfi deyil ki, suyun insan həyatındakı əhəmiyyəti qədim inanclarda, müqəddəs kitablarda, mədəniyyət və incəsənət əsərlərində yetərincə əksini tapmışdır. Su təbiətdə ən çox yayılmış maddə olsa da, suyun əldə edilməsi və ondan səmərəli istifadə tarixin bütün dövrlərində aktual olaraq qalmaqdadır.

Təmiz suyun əlçatanlığının təmin olunması dünyanın vacib elementlərindən biridir. Buna nail olmaq üçün planetdə kifayət qədər şirin su ehtiyatı vardır. Lakin zəif iqtisadi idarəetmə və ya infrastruktur zəifliyi səbəbi ilə hər il milyonlarla insan qeyri-adekvat su təchizatı, sanitariya və gigiyena ilə bağlı yaranan xəstəliklər nəticəsində həyatını itirir.

İnsanların istifadə etdiyi su mənbələri əsasən göllər, çaylar və su quyularıdır. Dünyada şirin su ehtiyatı ilbəil azalır, istehlak isə artır. Mütəxəssislərin proqnozlarına görə 2025-ci ilədək dünyada təxminən 2 milyard insan su çatışmayan ölkələrdə və ya regionlarda yaşayacaqdır.

“Su verən, bulaq yaradan, çay açan hər bir insan həmişə xalqın, millətin, insanların məhəbbətini qazanır” sözlərinin müəllifi, xalqımızın ümumilli Lideri Heydər Əliyev əhalinin keyfiyyətli və fasiləsiz içməli su ilə təmin edilməsinin müqəddəs vəzifə olduğunu xatırlatmışdır. Ulu öndərin layiqli davamçısı möhtərəm Prezident İlham Əliyev Azərbaycanda su təchizatı və kanalizasiya infrastrukturunun yenidən qurulmasını prioritet məqsədlərdən biri elan etmiş və ölkə başçısının rəhbərliyi ilə bu istiqamətdə kompleks tədbirlər həyata keçirilir.

Bu işlərin görülməsi nəticəsində ölkəmizdə suya əlçatanlıq səviyyəsi yüksəlmiş, emal olunan suyun normal paylanması, fasiləsiz su təchizatının təmini üçün yeni su kəmərləri inşa edilmiş, yeni anbarlar tikilmiş, paylayıcı su şəbəkələri yaradılmışdır. Bunlarla yanaşı respublikanın ərazisində içməyə yararlı sular məhdud ehtiyatlara malik olmaqla, dünyada iqlim dəyişiklikləri prosesi gedir, havanın tempraturu artır, buxarlanma çoxalır, dağlıq ərazilərdə yağan qar ehtiyatlar azalır. Bunlar gələcəkdə ölkəmizin su ehtiyatlarının azalmasına səbəb ola bilər.




BMT-nin Dayanıqlı İnkişaf gündəliyində suya əlçatanlıq məqsədi 6-cı hədəf kimi qeyd olunub. Bu məqsəd, sağlamlıq, ərzaq təhlükəsizliyi və s. məsələləri ilə bağlıdır. Suyun əhalinin sağlamlığı və həyat şəraiti ilə bağlı olması ilə yanaşı, onun dövlət üçün mühüm iqtisadi amil kimi ciddi əhəmiyyəti vardır.

Təbiət və insan cəmiyyəti həmişə zidiyyətli münasibətlərdə olub. Son zamanlar bu qarşıdurmada insan qalib gəlir və bu, bumeranq kimi cəmiyyətdə öz əksini tapır. Eyni proses təbii ehtiyatlardan istifadə zamanı da baş verir. Təbii su ehtiyatlarının nəzarətsiz istifadəsi və tullantı sularının insan tərəfindən təbii su mənbələrinə fərq qoymadan axıdılması daha çox qıtlığa, suyun çirklənməsinə, müxtəlif xəstəliklərin artmasına və yayılmasına səbəb olur.

Su ehtiyatlarının mümkün azalmalarına qarşı həlli yollarından biri də sudan mümkün qədər qənaətli istifadə, təsərrüfat və məişətdə yolverilən su itkilərinin qarşısının alınmasıdır.

Suya qənaət etməyin ən yaxşı yolu əhalinin sudan istifadə etikasına düzgün əməl etməsidir. Buna görə də əhalidə ekoloji savadın artırılması vacibdir. Əgər hər kəs suya qənaət vərdişlərinə yiyələnə bilsə, o zaman Azərbaycanda hal-hazırda istifadə edilən suyun 20 faizi ilə bütün ehtiyacları ödəmək olar.

Hər bir insan suya qənaət edərsə, bu ölkədə qənaətlə və səmərəli istifadənin qurulmasına kömək edəcək. Elm adamları yekdilliklə iddia edirlər ki, ev təsərrüfatları səviyyəsində qənaət diqqətdən kənarda qalmamalıdır.

Yeganə çıxış yolu həm istehsalatda, həm kənd təsərrüfatında, həm də məişətdə hər damcı suya qənaət etməkdir. Bu, istisnasız olaraq hər bir insanın vərdişinə çevrilməlidir.

Gələcəkdə su qıtlığı ilə üzləşməmək üçün hamılıqla sudan qənaətlə, səmərəli istifadə etməli, içməli sudan texniki məqsədlər üçün istifadə etməməliyik.

Eyni zamanda məişətdə sudan istifadə zamanı mənzillərdə mövcud sanitar-texniki avadanlıqların sazlıq vəziyyəti izlənilməli və problemləri vaxtında həll etmək lazımdır. Bağlarda ağac və bitgiləri suvarırkən suya qənaət etməli, hər hansı bir yerdən, küçədən və ya ərazidən boş yerə axan suyu gördükdə buna biganə qalmamalıyıq. İçməli su ilə maşın, xalça yuyulması , təsərrüfatların suvarılması kimi halları aradan qaldırmaq lazımdır.

Hər gün şəxsi gigiyena qaydalarının gözlənilməsi zamanı, əl-üz yuyularkən, dişlərinizi fırçalıyarkən və duşdan istifadə edilərkən açıq krandan boş suyun axıdılmasına yol verilməməlidir. Su israfının qarşısının alınması üçün dişlərinizin fırçalanması zamanı xüsusi stəkana süzlümüş sudan həm dişlərin, həm də fırçanın yuyulması üçün istifadə etmək lazımdır.

Eyni zamanda şəxsi gigiyena qaydalarının gözlənilməsi zamanı əl-üz yuyularkən, duş qəbul edərkən axar suya ehtiyatla yanaşmalı, su ısrafçılığına yol verilməməlidir. Axar suyun israfçılığa axıdılması gündəlik həyatda insan tələbatı üçün nəzərdə tutulmuş suyun dəfələrlə artmasına gətirib çıxarır.

Azərbaycanda milli səviyyədə ölkənin ehtiyatlarının idarə edilməsinin optimallaşdırılmasının hansı yolu seçilirsə, uğur hər bir fərdi vətəndaşdan, bizim suya ən qiymətli sərvət kimi şüurlu və diqqətli münasibətimizdən asılıdır.

Hər bir vətəndaş suya qənaət və ondan səmərəli istifadə etməli və ümumilikdə suya olan yanaşmasını dəyişməlidir.

**Atif MƏMMƏDOV,**
**Qəbələ rayon GEM-nin sanitariya-gigiyena şöbəsinin müdiri.**

# Sirli Şərq aləmi - "Azərbaycanın İsveçrəsi"

Azərbaycanın son illərdəki inkişafını Qəbələ rayonunun timsalında da çox əyani şəkildə görmək mümkündür. Qəbələ, sözün əsl mənasında, sürətlə inkişaf edir, böyük quruculuq, abadlıq işləri aparılır.

Qısa müddət ərzində Böyük Qafqaz sıra dağlarının ətəklərində sıx meşəliklərin, dağ çaylarının əhatəsində ən müasir tələblərə cavab verən mehmanxanalar, istirahət evləri, pansionatlar ucaldılıb, yollar çəkilib. Bir sözlə, turizm sənayesinin inkişaf etdirmək üçün bütün zəruri infrastruktur yaradılıb. Bütün bu dəyişikliklər, ilk növbədə, rayon iqtisadiyyatına və rayon əhalisinin həyat tərzinə müsbət təsir göstərib. Belə ki, turizmin reallaşdırılmasına başlamazdan əvvəl rayon ölkədə 50 faizlik yoxsulluq fonunda kasıb bölgələrdən sayılırdı. Hazırda Qəbələdə işsizlik demək olar ki, ləğv edilmişdir. Bir vaxtlar iş ardınca buradan başqa yerlərə üz tutanlar da artıq neçə ildir ki, Qəbələdə işləməyə üstünlük verirlər. Məsələ təkcə onda deyil ki, çoxlu adam birbaşa turizm sənayesinin özünün müxtəlif sahələrinə, obyektlərin tikintisinə, servis xidmətlərinə və s. cəlb olunub. Əsası odur ki, on minlərlə yerli kənd sakini konkret olaraq artıq fəaliyyət göstərən turizm obyektləri üçün kənd təsərrüfatı məhsulu istehsal edir. Onlar öz təsərrüfatlarında yetişdirdikləri meyvə və tərəvəzi harada və necə satmaq barədə fikirləşmirlər...

Azərbaycanın gözəl məkanları sırasında Qəbələnin öz yeri və payı var. Bu diyarın təbiəti, uca dağları, yaşıl meşələri, təmiz havası, çayları, gölləri, şəlalələri, mənzərəli yerləri həqiqətən də istirahət üçün ən əlverişli məkanlar sırasındadır. Nadir təbii iqlim şəraiti, mineral bulaqları, tarixi İpək Yolunun üstündə yerləşən, qədim Qafqaz Albaniyasının paytaxtı olan Qəbələ tarixi və müasirliyi özündə birləşdirir. Bu yerlərin təbii gözəlliyini yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev Qəbələni "Azərbaycanın İsveçrəsi" adlandırıb. Qəbələnin təbii sərvətləri sistemində onun mineral suları sırasında - mineral bulağı olan Qəmərvan kəndindən 5 km şimalda, Bum çayı dərəsində, 1388 metr hündürlükdə səthə çıxan termal-mineral sudur. Bulaq kükürdlü və dəmirli birləşmələrlə zəngindir. Suyunun kimyəvi və fiziki xassələrinə, müalicəvi əhəmiyyətinə görə Qəmərvan mineral bulağı Qərbi Avropada məşhur olan Kuldur mineral suyu ilə analoq təşkil edir.

Bitki örtüyünün zənginliyinə və növ tərkibinin müxtəlifliyinə görə seçilən Qafqaz meşələrinin ayrılmaz tərkib hissəsi olan Qəbələ rayonunun meşə örtüyü füsünkarlığı, əl-əlvanlığına və heyrətamizliyinə görə diqqəti cəlb edir. Gur yağan leysan yağışlar, isti hava şəraiti bu ərazidə həmişəyaşıl sıx meşə örtüyünün inkişafına səbəbdir. Qəbələnin dağ və düzən meşələri endemik və relikt bitkilərlə, meyvə və giləmeyvə ağac və kol bitkiləri ilə zəngindir.

Qəbələnin son illər bir sıra beynəlxalq mədəni-kütləvi tədbirlərə ev sahibliyi etməsi də bu rayona işgüzar səfərə və istirahətə gələnlərin sayını dəfələrlə artırmışdır. Artıq ənənə halını almış və hər ilin yay aylarında keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalında dünyanın müxtəlif ölkələrindən dünya şöhrətli musiqiçilər iştirak edirlər. Festivalda səsləndirilən klassik musiqiləri canlı dinləmək üçün yüzlərlə yerli və xarici musiqi həvəskarları Qəbələyə təşrif buyururlar. Qonaqlar musiqi bayramında iştirak etməklə yanaşı, rayonun müasir turizm obyektlərində dincəlir, tarixi abidələri ilə tanış olur, əsrarəngiz təbiətini seyr edirlər. Rayonda turizmin inkişaf dinamikası yüksələn templə davam edir.

Qəbələ həm də müxtəlif xalqların bir məkanda yaşadığı yerdir. Bura gələn turistlər multikulturalizmin Azərbaycanda yaşadığını və bu yaşam tərzinin sülh və dostluq üçün unikal model olduğunu öz gözləriylə görürlər.

Qəbələ rayonu ərazisində bu ilin yanvar-iyun aylarında 18 mehmanxana və mehmanxana tipli müəssisədən 16-i fəaliyyət göstərib. Rayon ərazisində mövcud olan 18 otel və mehmanxana tipli müəssisələrin birdəfəlik tutumu 2496 nömrə olduğu halda, fəaliyyət göstərən 16 otel və mehmanxana tipli müəssisələrdə yanvar-iyun aylarında 5256 nömrədən istifadə edilmişdir. 2023-cü ilin yanvar-iyun aylarında otel və mehmanxanalarda 12552 çarpayıyerdən istifadə olunub. Bir gün qalmaq üçün orta qiymət 95,8 manat təşkil edib. Turistlərin qalma müddəti 1-2 gün olub. Cari ilin yanvar-iyun aylarında Qəbələ rayonundakı otel və mehmanxana tipli müəssisələrə 35450 nəfər yerləşdirilmişdir. Onların 19296 nəfəri və ya 54,4 faizi Azərbaycan, 16154 nəfəri və ya 45,6 faizi xarici ölkə vətəndaşları qeydə alınıb. Ümumiyyətlə, Qəbələnin otel və mehmanxana tipli müəssisələrinə yerləşdirilən yerli və əcnəbi turistlərin sayı əvvəlki ilin müvafiq dövrü illə müqayisədə 5742 nəfər və ya 13,9 faiz azalmışdır. 2023-cü ilın yanvar-iyun aylarında yerli turistlərin sayı keçən ilin eyni dövrü ilə müqayisədə 5030 nəfər və ya 20,7 faiz azalmış, əcnəbi turistlərin sayında isə 712 nəfər və ya 4,2 faiz azalma qeydə alınıb.

2023-cü ilin yanvar-iyun aylarında Qəbələyə gələn əcnəbi turistlər arasında Hindistan vətəndaşları üstünlük təşkil edir. Ötən müddətdə bu ölkənin 3729 vətəndaşı Qəbələdə olub. Ümumiyyətlə, yanvar-iyun aylarında Qəbələyə Səudiyyə Ərəbistandan 3423 nəfər, Birləşmiş Ərəb Əmirlikdən 2578 nəfər, Küveytdən 890 nəfər, Israildan 778 nəfər, Rusiyadan 617 nəfər, Pakistandan 479 nəfər, Qətərdən 395 nəfər, Omandən 393 nəfər, Türkiyədən 300 nəfər, ABŞ-dan 131 nəfər, Bəhreyndən 127 nəfər, Qazaxıstandan isə 116 nəfər turist gəlib. Qəbələyə gələn əcnəbi turistlərin 2198 nəfəri isə digər ölkələrin vətəndaşları olub.

2023-cü ilin yanvar-iyun aylarında turizm obyektlərində işçilərin orta sayı 924 nəfər olmuşdur. Onlardan 218 nəfərini qadınlar, 56 nəfərini turizm və otelçilik üzrə təhsil alan mütəxəssislər, 17 nəfərini isə əcnəbi işçilər təşkil edib.

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün ölkəmizin bütün bölgələri o cümlədən Qəbələ sürətlə inkişaf edir. Rayonun sosial-iqtisadi inkişafı və zəngin turizm potensialı yaxın illərdə Qəbələnin dünyanın məşhur turizm mərkəzlərindən birinə çevriləcəyinə zəmin yaradır.

**Ayaz İSGƏNDƏROV,**
**rayon statistika idarəsinin rəisi.**